# ANGC-nin AYAMA Konfrans və Sərgisində iştirak haqqında hesabat.

10-13 iyun 2013-ci ildə Avropa Yerlemləri Alimləri və Mühəndisləri Assosiasiyasının təşkil etdiyi ilə 75-cü Konfrans və Sərgisi Londonda baş tutdu. Konfrans və Sərgi AYAMA və SPE EUROPEC birgə təşkilatçılığı ilə ilin ən böyük yer elmləri konfransı olmaqla yanaşı eyni zamanda ən müasir texnologiyalar sərgiləndiyi məkan idi.

Ötən illərdə olduğu kimi Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti "Birləşmiş Cəmiyyətlər" bölməsində öz sərgisi ilə yer alırdı. Sərgidə Avropa Yerlemləri Alimləri və MühəndisləriAssosiasiyasının Azərbaycan bölməsi ilə birgə iştirak edən ANGC, AYAMA-nın yerli bölmələrinin 2012-ci il üçün hesabat iclasında iştirak etmişdir. AYAMA Azərbaycan bölməsinin icraçı katibi Leyla Əlimuradova 2012-ci il üçün illik hesabatı ilə çıxış etmişdir.

ANGC AYAMA-nın 75-cü Konfrans və Sərgisində xüsusi hazırlıq işləri ilə təmsil olunurdu. Bu il ANGC-nin Sərgidəki iştirakı ötən illərə nisbətən daha xüsusi idi çünki 29 may, 2013 - cü il 20 illik yubileyi təntənəli sürətdə qeyd etmişdi və Sərgidə məhz 20 illik fəaliyyət xüsusi olaraq sərgilənirdi. Sərgi müddətində ANGC 20 illik fəaliyyəti əhatə edən Beynəlxalq və Regional Konfranslar, Tələbə Konfransları, çöl ekskursiyaları, geoloqların aylıq görüşlərini, tələbə və mütəxəsislər üçün keçirilmiş seminarları və s. əks etdirən divar kağızları ilə nümayiş olunmuşdur. ANGC tərəfindən nəşrdən çıxmış "Azərbaycan Geoloqu" elmi jurnallarının müxtəlif sayları və aylıq informasiya bülletenləri Sərgi iştirakçılarına təqdim olunmuşdur. Gələcəkdə müxtəlif ölkələrin cəmiyyətləri ilə birgə əmakdaşlığın qurulması istiqamətində ANGC-nin AYAMA-nın 75–ci Konfrans və Sərgisində iştirakı olduqca samərəli idi. Sərgi müddətində də ANGC və AYAMA-nın Azərbaycan bölməsi yeni əlaqələrin və əmakdaşlıqların yaradılması yönündə bir neçə ölkələrin Cəmiyyətləri ilə görüşlər keçirmişdir. Sərginin 3-cü günü AYAMA-nın

Prezidenti Gladys Gonzalez, xarici əlaqələr üzrə nümayəndə Roar van Borselen ANGC-nin stendini ziyarət etdilər və bu zaman ANGC-nin 20 illik fəaliyyəti və hayata keçirdiyi işlərlə yaxından tanış oldular.